# Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi

## ƏMR

## № 22

Bakı şəhəri 17 mart 2020-ci il

**Koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı əlavə tədbirlər haqqında**

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən ölkə ərazisində tətbiq olunmuş bəzi sosial izolyasiya tədbirlərinin həyata keçirilməsini təmin etmək məqsədilə Agentlik üzrə 2020-ci il 14 mart tarixli 21 nömrəli Əmr imzalanmışdır.

Əmrin icrası ilə bağlı Agentlik tərəfindən bir sıra profilaktik tədbirlər görülmüş, o cümlədən Agentliyin Hökumət Evində və Mərdanov qardaşları, 124 ünvanında yerləşən inzibati binalarının mərtəbələri xüsusi dezinfeksiya məhlulları ilə təmin edilmiş, insan hərarətini məsafədən ölçən cihaz və müvafiq gigiyenik vasitələr alınmışdır.

Bununla yanaşı, Azərbaycan Respublikasının Baş Nazirinin 2020-ci il 16 mart tarixli 1/384 nömrəli məktubunda koronovirus (COVID-19) infeksiyasına qarşı mübarizənin təşkil edilməsini təmin etmək məqsədilə bir sıra tapşırıqlar verilmişdir.

Agentlik üzrə verilmiş 2020-ci il 14 mart tarixli 21 nömrəli Əmrdə göstərilən tapşırıqlara əlavə olaraq, Azərbaycan Respublikasının Baş Nazirinin 2020-ci il 16 mart tarixli 1/384 nömrəli məktubunda göstərilənlərin təmin edilməsi və icrasına ciddi nəzarət edilməsi məqsədilə Agentliyin Nizamnaməsinin 4.8.5-ci yarımbəndini rəhbər tutaraq **əmr edirəm:**

1. Azərbaycan Respublikasının Baş Nazirinin 2020-ci il 16 mart tarixli 1/384 nömrəli məktubu rəhbərlik və icra üçün qəbul edilsin.

2. Agentliyin struktur bölmələrinin və tabeliyində olan qurumların rəhbərləri Məktubda göstərilən tapşırıqların yerinə yetirilməsi üçün zəruri işlərin görülməsini təmin etsinlər.

3. Agentliyin Kadrlar şöbəsi bu Əmrin surətinin Agentliyin aidiyyəti struktur bölmələrinə və tabeliyində olan qurumlara çatdırılmasını təmin etsin.

4. Agentliyin struktur bölmələrinin və tabeliyində olan qurumların rəhbərləri işçilərin bu Əmrlə tanış edilməsini və tanış olmaları barədə imzalamalarını təmin etsinlər.

5. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** Azərbaycan Respublikasının Baş Nazirinin 2020-ci il 16 mart tarixli 1/384 nömrəli məktubu.

**İdarə Heyətinin sədri** **Kamran İmanov**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ**

"16" mart 2020-ci il № 1/384

**Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının**
**və dövlət qurumlarının rəhbərlərinə**

Koronavirus (COVİD-19) infeksiyasına qarşı mübarizənin təşkil edilməsini təmin etmək məqsədilə aşağıdakıların təmin edilməsi və icrasına ciddi nəzarət edilməsi **Sizə tapşırılır**:

1. İclasların, müşavirələrin və toplantıların yalnız telefon (selektor) rabitəsi, mobil və internet rabitəsi vasitəsilə keçirilməsinə üstünlük verilsin;
2. Mümkün olduğu halda, əməkdaşların məsafədən işləmələri məsələsinə baxılsın;
3. 60 yaşdan yuxarı şəxslərin və öhdəsində azyaşlı uşağı olan qadınların iş davamiyyətinə güzəştli şərtlər tətbiq edilsin;
4. İşçilərin və onların ailə üzvlərindən birinin qrip, soyuqdəymə, halsızlıq və digər bu kimi halları olduğu təqdirdə həmin işçilərin işə çıxması qadağan edilsin;
5. Xüsusi zərurət olduğu hallar istisna olmaqla, bütün ezamiyyətlər dayandırılsın. Ezamiyyətə xüsusi zərurət olduğu hallarda, razılıq alınması məqsədilə dövlət orqanlarının və qurumlarının rəhbərləri tərəfindən operativ qərargaha əsaslandırılmış rəsmi müraciət edilsin;
6. Əməkdaşların xarici ölkələrə şəxsi səfərləri məhdudlaşdırılsın;
7. Vətəndaş qəbulu ilə əlaqədar aşağıdakı qaydalara riayət edilsin:
7.1. qəbul otağında vətəndaşların qrup və fərdi surətdə qəbulları təxirə salınsın;
7.2. yerlərdə səyyar qəbulların keçirilməsi təxirə salınsın;
7.3. vətəndaşların müraciətlərinin fasiləsiz qəbulu yalnız elektron və telefon rabitəsi vasitəsilə həyata keçirilsin, bu məqsədlə hər orqan və qurumda elektron və telefon əlaqə ünvanları və nömrələri müəyyən edilsin, habelə qaynar xətlərin fasiləsiz fəaliyyəti təmin edilsin;
7.4. vətəndaş müraciətlərinin yalnız elektron və telefon vasitəsilə qəbul edilməsi məqsədilə hər orqan və qurumda məsul əməkdaşlar müəyyən edilsin;
7.5. mümkün olduğu halda, vətəndaşlara səyyar xidmətlərin göstərilməsi təşkil edilsin;
7.6. göstərilən tədbirlər barədə vətəndaşların məlumatlandırılması təmin olunsun;
7.7. mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət qurumları vətəndaşların müraciətlərinə xüsusi həssaslıqla yanaşsınlar.

8. Əməkdaşlara sosial məsuliyyətli davranmaları, xüsusi zərurət olmadan digər şəxslərlə təmasda olmamaları və virusun yayılmasının qarşısının alınmasına dəstək olacaq hər cür ehtiyat tədbiri görmələri tapşırılsın.

9. Yuxarıda qeyd olunan müddəalar hüquq mühafizə və hərbi xidmət orqanlarına, dövlət əhəmiyyətli və həyat təminatlı obyektlərə, fasiləsiz iş rejimində fəaliyyət göstərən müəssisələrə, səhiyyə və digər tibb müəssisələrinin işçilərinə şamil edilmir.

Əli Əsədov